2018-ci ilin yanvar-fevral aylarında muxtar respublikada bütün maliyyə mənbələri hesabına əsas kapitala 100913 min manat vəsait yönəldilmişdir ki, bu da bir il öncəki göstəricidən 4,4 faiz çoxdur. Tikinti-quraşdırma işlərinə qoyulan vəsaitin dəyəri əvvəlki ilin müvafiq dövrünə nisbətən 5 faiz artaraq 93408 min manat olmuşdur ki, bu da əsas kapitala yönəldilmiş vəsaitin 92,6 faizini təşkil edir.

2018-ci ilin yanvar ayında muxtar respublikada tikinti sahəsində 8692 nəfər işçi çalışmışdır ki, bu da 2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 2,8 faiz çoxdur. Tikinti sahəsində bir işçiyə hesablanmış orta aylıq nominal əməkhaqqı 2017-ci ilin müvafiq dövrünə nisbətən 3,2 faiz artaraq 438 manat olmuşdur.